


Pres Reliz

Piyada əleyhinə minalardan azad Cənubi Qafqaz
**#landminefreeSC**

Bu il ilk dəfə olaraq 4 aprel Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü "Piyada əleyhinə minalardan azad Cənubi Qafqaz" sloqanı altında Cənubi Qafqazda regional kampaniya şəklində qeyd olunacaqdır. Aprelin 4-dən 10-na kimi davam edəcək kampaniya çərçivəsində müxtəlif şəhər və rayonlarda tədbirlər keçiriləcək, azərbaycan, erməni, gürcü, ingilis və rus dillərində məlumat xarakterli materiallar təqdim olunacaqdır.

Təxmini hesablamalara görə son otuz ildə Cənubi Qafqazda piyada əleyhinə mina və ya digər növ partlamamış hərbi sursatlardan qeyri-döyüş şəraitində ölənlərin və yaralananların sayı beş min nəfərdən artıqdır. Geniş ərazilərin, xüsusilə də şəhər mərkəzlərinin təmizlənməsi istiqamətində bir neçə uğurlu cəhdlərə baxmayaraq, problem öz həllini tapmamışdır.

Piyada əleyhinə minalar insanları onlara fərq qoymadan öldürür və şikəst edir; qurbanların çoxu uşaqlar daxil olmaqla günahsız mülki şəxslərdir. Cenevrədə yerləşən *Landmine and Cluster Munitions Monitor* təşkilatının 2018-ci il hesabatında qeyd olunur ki, hədəfi hərbçilər deyil, mülki şəxslər olan piyada əleyhinə minalar və partlamamış hərbi sursatlardan qeydə alınmış ümumi itkilərin 87%-i mülki şəxslərdir ki, onların 47%-ni uşaqlar təşkil edir. Cənubi Qafqaz üzrə insan tələfatı barədə məlumatda da qeyd olunur ki, qurbanların əksəriyyəti mülki şəxslərdir. Problem yalnız birbaşa zərərçəkmişlərdə deyil, onların ailələri, dostları və icma üzvləri arasında da dərin iz buraxır.

Cənubi Qafqazda piyada əleyhinə minalar insan iztirabına səbəb olmaqla yanaşı, bir çox hallarda iqtisadi inkişafa əngəllər törədir. Buraya aqrar torpaqların istifadəsinin məhdudlaşması, heyvandarlıq fəaliyyətinin daralması ilə müşaiyət olunan təsərrüfat imkanlarının zəifləməsi daxildir.

4-10 aprel tarixlərində keçiriləcək "Piyada əleyhinə minalardan azad Cənubi Qafqaz" kampaniyası regiondakı hökümətləri, ictimai rəyi formalaşdıranları və vətəndaşları Cənubi Qafqazı piyada əleyhinə mina və ya digər növ partlamamış hərbi sursat bəlasından qurtarmaq istiqamətindəki səylərini artırmağa səsləyəcək. Kampaniya piyada əleyhinə mina riski ilə yaşayan uşaqlar, gənclər və digər həssas qrupların, xüsusilə də təhlükəli ərazilərdə yaşayanların səsini duyurmağa çalışacaq. Digər tərəfdən, kampaniya Cənubi Qafqazın indiki və gələcək nəsillər üçün təhlükəsiz olması üçün öz həyatlarını gündəlik olaraq risk altına qoyan, özünü bu sahəyə həsr etmiş yüzlərlə yerli peşəkar tərəfindən görülmüş və görülməkdə olan yaxşı işləri qeyd edəcəkdir.

Avropa İttifaqı tərəfindən dəstəklənən "Piyada əleyhinə minalardan azad Cənubi Qafqaz" kampaniyasında bir sıra milli və beynəlxalq təşkilatlar iştirak edəcəkdir.

"Piyada əleyhinə minalardan azad Cənubi Qafqaz" kampaniyası haqqında məlumat sosial mediada **#landminefreeSC** həştəqi altında mövcuddur. Ətraflı məlumat üçün "Piyada əleyhinə minalardan azad Cənubi Qafqaz" kampaniyasının əlaqələndirici ofisinə (office@links-dar.org) müraciət edə bilərsiniz.